Azərbaycan violonçel məktəbinin görkəmli nümayəndələrindən biri də istedadlı musiqiçi, Azərbaycan Respublikasının əməkdar artisti Yuri Ağası oğlu Abdullayevdir.Onu gözəl violonçelist Sabir Əliyev məktəbinin əsl davamçısı hesab etmək olar. Görkəmli musiqiçi, ifaçı və pedaqoq S.Əliyevin məktəbini keçən Y.Abdullayev öz müəllimindən bəhrələnmiş, həm ifaçı, həm də pedaqoq kimi onun yaradıcılıq yolunu davam etdirməyə çalışmışdır.

Y.Abdullayev 1945-ci ildə Leninqrad (indiki Sankt-Peterburq) şəhərində anadan olmuşdur. İlk musiqi təhsilini 1952-1963-cü illər ərzində Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının nəzdində fəaliyyət göstərən orta ixtisas musiqi məktəbində almışdır. Onun əsas yaradıcılıq həyatı konservatoriyanın doğma divarları arasında keçmişdir. Burada o, violonçelistlərin III Ümumittifaq müsabiqəsinin laureatı olmuşdur. Ona qədər III Zaqafqaziya müsabiqəsinin I mükafatına layiq görülmüşdür. Bu müsabiqədə o, David Heniqas, İvan Monigetti, Boris Perqamenşikov və başqa istedadlı violonçelistlərlə rəqabət aparmış və uğur qazanmışdır. Daima yaradıcılıq axtarışında olan Y.Abdullayev öz həmkarları kimi M.Rostropoviçdən dərs almaq üçün 1970-ci ildə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasına daxil olur və assistent-təcrübəçi kimi M. Rostropoviçdən dərs alır. Qeyd etməliyik ki, bu iki insanın yaradıcılıq əlaqələri sonralar da davam etmişdir. Belə ki, 1997-ci ildə M. Rostropoviçin Bakıya gəlişi BMA-da və Azərbaycan Dövlət Simfonik Orkestrində çalışan Y. Abdullayevlə yeni görüşə səbəb oldu.

Violonçel sənətini incəliklərinə qədər bilən Y.Abdullayev 1967-ci ildən geniş yaradıcılıq fəaliyyətinə başlayır. Belə ki, bir



# MUSİQİYƏ HƏSR OLUNMUŞ HƏYAT

solist və ansambl ifaçısı kimi müntəzəm olaraq Q.Qarayev adına Azərbaycan Dövlət Kamera orkestrində, 1970-1971- ci illərdə Azərbaycan Tele-Radionun triosunda çalışmış,1979-cu ildən Azərbaycan Dövlət Simli Kvartetinin üzvü olmuşdur.

Y.Abdullayev pedaqoji fəaliyyətə çox erkən başlamışdır.1966-cı ildən Bülbül adına orta ixtisas musiqi məktəbində işləyən Yuri Abdullayev sonra Şəki Musiqi Texnikumunda müəllimlik fəaliyyətini davam etdirmişdir (1971-1977). 1969-cu ildən Azərbaycan Dövlət Konservatoriyasında işləyən Yuri Abdullayev eyni zamanda Konservatoriyanın nəzdindəki məktəb-studiyada çalışmışdır. 1988-1989-cu illərdə Azərbaycan Dövlət Konservatoriyasının ifaçılıq fakültəsinin dekanı vəzifəsində işləmişdir. İxtisasla yanaşı Kamera ansamblından dərs demişdir.

Yaradıcılıq fəalliyyətini Türkiyədə davam etdirən Y.Abdullayev 1992-1996- cı illərdə Eski şəhər Konservatoriyasının dəvəti ilə orada müəllim kimi çalışaraq qısa müddətdə professional violonçel məktəbinin təşkil edilməsində böyük rol oynamışdır. Onun fəaliyyəti nəticəsində violonçelistlərdən ibarət ansambl yaranmışdır. Solist kimi isə o, Türkiyənin mərkəzi televiziyasında çıxış edərək L.Bokkerinin violonçel üçün konsertini ifa etmişdir.

Bakıya qayıtdıqdan sonra bütün varlığı ilə Azərbaycanın musiqi həyatına bağlanır. Son 2 il yarım ərzində Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik orkestrində çalışan Y.Abdullayev ifaçılıq səviyyəsinin yüksəlməsində və inkişafında əvəzsiz rol oynayır. Eyni zamanda pedaqoji fəaliyyətini davam etdirən Y.Abdullayevin yetişdirdiyi tələbələr dahi violonçelist, dünyaşöhrətli M.Rostropoviçin Bakıda, məhz Konservatoriyada keçirdiyi ustad dərslərində böyük uğurla çıxış edirdilər. Bu istedadlı insanın vaxtsız ölümü Azərbaycan musiqi həyatında böyük itkiyə səbəb oldu.

Bakıda fəaliyyət göstərən L. və M.Rostropoviçlərin ev-muzeyinin göstərdiyi fəaliyyət dairəsinə bir çox sahələrlə yanaşı Azərbaycan violonçel sənətinin tanınmış xadimlərinin yaradıcılıq yolunu araşdırmaq, onlara məxsus şəxsi materialları toplamaq, musiqi gecələri keçirmək, bir sözlə, Azərbaycan violonçel sənətinin təbliği də daxildir. Bununla əlaqədar olaraq 19 oktyabr 2005-ci il





tarixində L. və M. Rostropoviçlərin ev-muzeyində Yuri Abdullayevin anadan olmasının 60 illiyinə həsr edilmiş xatirə gecəsi keçirilmişdir.

Tədbiri giriş sözü ilə muzeyin direktoru Şeyla xanım Heydərova açmışdır. Sonra Y.Abdullayevin həyat və yaradıcılığından muzeyin böyük elmi işçisi K.Kərimova danışmışdır. Tədbirdə BMA-nın tədris işləri üzrə prorektoru O.Abasquliyev, pianoçu, dossent E.Əliyeva, kamera ansamblı sinifinin müdiri R.Nərimanbəyli, ifaçılıq fakültəsinin dekanı N.Abbaszadə, opera studiyasının direktoru A.Əliyev, Y.Abdullayevin ailə üzvlərindən qardaşı E.Abdullayev, Az.Tele-Radio Şirkətinin fond və operativ fonotekasının şöbə müdiri İ.Səfərov, bir çox muzey əməkdaşları, Y.Abdullayevin tələbələri və başqaları iştirak etmişlər. Tədbir iştirakçıları Y.Abdullayevin ifasında yazılmış lent yazılarının sədaları altında təşkil olunmuş sərgi ilə tanış oldular. Sərgidə Y.Abdullayevin həyat və yaradıcılıq yolunu işıqlandıran müxtəlif xarakterli sənədlər, münsiflər heyətinin avtoqrafları ilə fəxri fərmanlar, mükafatlar, şəxsi arxivindən maraqlı eksponatlar, şəxsi kitabxanasından nadir not kitabları nümayiş olunmuşdur. Bununla yanaşı maraqlı fotoşəkillər də nümayiş olunmuşdur ki, bunlardan Y.Abdullayevin şagirdləri ilə, müəllimi S.Əliyevlə, BMA-nın müəllimləri ilə fotoşəkillərini qeyd etmək olar. Maraqlı materiallardan biri də M. Rostropoviçin Y.Abdullayevin P.İ.Çaykovski adına Moskva Konservatoriyasında aldığı təhsili haqqında yazdığı "Rəy", M.Rostropoviçlə olan fotoşəkilləridir. Sərgidə 100-ə yaxın maraqlı eksponatlar nümayiş olunmuşdur.

Qonaqlar Y.Abdullayevlə bağlı xatirələrini tədbir iştirakçıları ilə bölüşdülər.Onların arasında müsabiqələrdə, konsertlərdə daima Y.Abdullayevi müşayiət edən pianoçu Elmira xanım Əliyevanın adını xüsusilə qeyd etməliyik.

Y.Abdullayevin tələbələrindən E.Əliyev, E.Kələşova, S.İvanova və başqaları da tədbirdə iştirak edirdi. E.Əliyev solo və simli kvartetlə (I skripka-E.Əliyeva, II skripka-T.Babayeva, alt-B.Axundov, violonçel-E.Əliyev) birlikdə maraqlı əsərlər ifa etdi. Bununla yanaşı gənc ifaçılardan A.Miltıx və V.Sandler də müxtəlif əsərlərlə çıxış etdilər. Sonda tədbir iştirakçılarına maraqlı video film təqdim olundu. Bu film 1998-ci ildə Y.Abdullayevin L.Bokkerininin konsertini ifa edərkən çəkilmişdir.

***Gözəl musiqi duyumuna, ifa texnikasına malik olan Y.Abdullayev özünü bütünlüklə musiqiyə həsr etmiş, daima axtarışda olmuşdur. Qaynar yaradıcılığa malik enerjisini öz musiqili əhatəsinə bəxş edərək, özünü musiqiyə fəda etmişdir. İki istedadlı violonçelist: Azərbaycan professional violonçel sənətinin ən görkəmli nümayəndəsi S.Əliyevdən və dünya şöhrətli musiqiçi M.Rostropoviçdən dərs alan Y.Abdullayev öz müəllimlərinin ən yaxşı xüsusiyyətlərini mənimsəyərək əsl pedaqoq kimi tələbələrindən biliyini əsirgəməmişdir. Tələbələri isə bu gün onun yolunu davam etdirir.***

***Şeyla Heydərova,***
***L. və M.Rotropoviçlərin ev-muzeyinin direktoru***